*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 1* *ISSN: 2663-4406*
*Səhifə: 100-107* *E-ISSN: 2709-2699*
*https://doi.org/10.59849/2663-4406.2024.1.100*

# Bədii yaradıcılıqda simvol-metafora əlaqələri

**Günay Qarayeva**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: gunaygarayeva@gmail.com

**Annotasiya.** Məqalədə geniş araşdırma obyekti olan simvol və metofora əlaqələrindən danışılır. Problemə nəzəri aspektdən əhatəli yanaşılsa da çox zaman işarə, metofora, alleqoriya, simvol arasında ortaq məqamların olması, sərhədlərin tam müəyyənləşməməsi çətinlik yaradır. Elmi ədəbiyyatşünaslıqda simvola çox zaman metofora kimi baxılır, anlayışlar qarışdırılır, bəzən simvol metaforanın sinonimi kimi işlədilir. Məhz bu baxımdan həm obrazlılıq elementi, həm struktur-semantik baxımdan yaxınlığın olması anlayışların bir-birindən fərqləndirilməsində müəyyən çətinliklər yaradır. Çox zaman mətn daxilində bunları bir-birindən ayırmaq, aralarındakı sərhədləri təyin etmək mümkün olmur. Yəni həm simvola, həm də metaforaya eyni müstəvidə baxılır. Burada bir məsələni də qeyd etmək istərdim. Simvolun başlanğıcı metaforadı, çünki, ilk olaraq tərəflər arasında bənzətmə və müqayisə dayanır. Bu baxımdan metaforadan simvola keçid ola da bilər, olmaya da. Aparılan arşdırmada bu anlayışları bir-birinə yaxınlaşdıran və fərqləndirən məqamlar H.Sanılı, Ə.Cavad, M.Müşfiq, R.Rza, H.Arif və b. yaradıcılığından gətirilən nümunələr əsasında təhlil olunur, elmi sübut və dəlillər əsasında simvol və metafora əlaqələri, onları bir-birindən fərqləndirən səciyyəvi xüsusiyyətlər tədqiq edilir.
**Açar sözlər:** şeir, poetik kateqoriya, metafora, “metoforik simvol”, simvol, assosiasya

**Məqalə tarixçəsi:** göndərilib – 03.06.2024; qəbul edilib – 17.06.2024

# The connections between symbol and metaphor

**Gunay Garayeva**
Doctor of Philosophy in Philology, Associate professor
Institute of Literature named after Nizami Ganjavi of ANAS
E-mail:gunaygarayeva@gmail.com

**Abstract.** The article talks about the connections between symbol and metaphor, which are the subject of extensive research. When considering the theoretical aspect of a problem from many angles, difficulties are often created in identifying common connections between definition, metaphor, allegory, symbol, and in establishing boundaries between them. In literary studies, a symbol is often mistaken for a metaphor, there is a confusion of concepts, and sometimes a symbol is used as a synonym for metaphor. This is where some difficulties arise in distinguishing similar concepts based on figurative elements and structural and semantic points of view. Often in the text itself it is impossible to determine their distinction from each other, i.e. both symbol and metaphor are understood in the same way. And here one question requires consideration: the beginning of a

symbol is a metaphor, since initially there is a similarity and comparison between them. Therefore, the transition of metaphor into symbol is either possible or not. In the study, the similarities and differences of these concepts are analyzed using examples of creativity by H.Sanyly, A.Javad, M.Mushfig, R.Rza, H.Arif and others, the connections between symbol and metaphor, the characteristic features of their differences are explored using scientific arguments and reasons.
**Keywords:** poem, poetic category, metaphor, metaphorical symbol, symbol, association

**Article history:** received – 03.06.2024; accepted − 17.06.2024

## Giriş / *Introduction*

Müxtəlif tropların öyrənilməsi, onların spesifik xüsusiyyətlərinin təyin edilib üzə çıxarılması istiqamətində tədqiqatların intensivləşməsi yeni elmi-nəzəri biliklərin əldə olunmasına imkan yaradır. Simvol nəzəriyyəsi ilə bağlı bir çox tədqiqatlara nəzər salsaq, işarə, metafora, simvol, alleqoriya anlayışları arasında ortaq məqamların olduğunu və eyni zamanda bu poetik kateqoriyalar arasında mövcud sərhədlərin bəzən qarışıq salındığının şahidi olarıq. Simvol-işarə, simvol-metafora, simvol-alleqoriya və s. haqqında kifayət qədər elmi ədəbiyyatşünaslıqda araşdırmalara rast gəlmək mümkündür. Bəs simvol, metofora arasında sərhəd nədən ibarətdir? Poetik funksionallığı baxımından metafora ilə simvolu yaxınlaşdıran və fərqləndirən məqamlar nədir? Tədqiq edəcəyimiz problemə bədii nümunələrə elmi-nəzəri araşdırmaları tətbiq etməklə aydınlıq gətirməyə çalışacağıq.

## Əsas hissə / *Main part*

Simvol mətnə daxil olan alleqoriya, metafora, bənzətmə, müqayisə və s. dil komponentlərini ehtiva edir və bunlar bədii süjetdə obrazın əsas mahiyyətini açır, məzmundakı ideya və məqsədin reallaşmasına xidmət göstərir. Ədəbiyyatşünas V.V.Timofeyeva Mayakovskinin poetik dili haqqında yazdığı "Şairin dili və zaman" tədqiqatında simvolun poetikasında metaforanın əsas yer tutduğunu qeyd edərək onu yalnız poetik obrazlılığın yaranmasında xüsusi əhəmiyyətə malik bədii vasitə hesab etmir və Qofmanın simvolik poeziyanın dili haqqında tədqiqatına istinad edərək yazır: ".....sözün metafora kimi işlənilməsi prosesində söz sanki öz real – konkret maddi mənasından azad olur, semantik müxtəliflik, geniş imkanlar yaradaraq simvola çevrilir" [17, s.46]. Bundan fərqli olaraq A.F.Losev "Simvol və bədii yaradıcılıq" adlı tədqiqatında metafora və simvolu poetik obraza daxil edərək onların arasında oxşar məqamları istisna etməsə də, aralarında müəyyən sərhədlərin mövcud olduğunu qeyd edir və buna dəqiqlik gətirir: "Simvol bizə hər hansı bir müəmmalı əşyanı göstərir (işarə edir), həmçinin o bizə eyni vaxtda həmin əşyanın aydınlaşması və müəmmalı qalmaması üçün gərəkli nəticə çıxara bilməyimizə hər cür imkan yaradır. Metaforaya gəldikdə isə, o özündən kənar heç bir əşyaya işarə etmir, o özü özlüyündə özünə diqqət yönəldir ki, heç bir başqa əşyalara keçməmək şərtilə bir müddət ona diqqət yetirsinlər və onun haqqında düşünsünlər" [13, s.3]. Deməli, metafora aid olduğu konkret söz və əşyanın təyinedicisidir. Burada istiqamət konkret obyektin üzərinə yönəldilir. Simvolda isə, söz, əşya və yaxud predmetə istiqamətlənən fikir, verilən məna birbaşa şəkildə həmin əşya və predmetlə əlaqəli olmur, obyekt yox, onun ideyasının müxtəlifliyi, prozaikliyi önə çəkilir. Poetikada metafora mürəkkəb kateqoriyalar sisteminə daxildir. Ədəbiyyatşünas Zəhra Allahverdiyeva yazır: "..... metafora Şərq xalqları ədəbiyyatının poetika tarixində mürəkkəb və geniş kateqoriyalı məcaz növü olmaqla, bədii təfəkkürün müəyyən fundamental məsələlərinin istifadəsinə yönəldilən mürəkkəb funksiyalı fiqurdur" [1, s.179]. Metafora poetik obrazlılığın əsas yaradıcısı hesab olunur, obrazyaratmada metaforaların funksiyası daha

çevikdir. Aristotelin təbirincə desək, "ən təsirli poetik obrazları ancaq metaforalar vasitəsilə yaratmaq mümkündür" [2, s.99]. Metaforanın genezisi ilə bağlı O.Freydenberqin tədqiqatlarını xüsusi qeyd etmək lazımdır. Metafora əsasən varlıqlar arasında iki oxşar, ortaq əlamətlərin paylaşılmasıdır. Metaforanın bir neçə formaları mövcuddur. Bunların içərisində birbaşa metafora – müəyyən bir əlamətin, oxşar keyfiyyətin digər əşya üzərində icra olunmasıdır. Digəri isə simvolik, alleqorik məzmuna yaxın metaforadır. Əsasən təbiət varlıqları ilə oxşarlıqları özündə ehtiva edən metafora ilkin olaraq insan-təbiət münasibətləri, bağlılıqları ilə əlaqədar insan təxəyüllünün məhsuluna çevrilmişdir. Bu haqda Freydenberqin tədqiqatlarında oxuyuruq. "....məcazlıq "insan-təbiət" sisteminin dərk olunmasında baş verən tədrici dəyişikliklərdən sonra, təqribən eramızdan əvvəl II-I minilliklərdə yaranmış fenomendir" [20, s.53].

Simvol funksiya baxımından ən ali, son mərhələdir. Bunun bədii düşüncədə oturuşması üçün müəyyən bir zaman məsafəsi lazımdır. Bəs simvol – metafora arasında sərhəd nədən ibarətdir? Poetik funksionallığı baxımından metafora ilə simvolu yaxınlaşdıran və fərqləndirən məqamlar nədir? Həm simvol, həm də metafora üçün ortaq məqam hər ikisinin məcazın növlərindən biri olmasıdır. Metaforada bir əşya və predmetə məxsus qabarıq cəhət digəri üzərinə asanlıqla köçürülə bilir. Rus və ya Avropa ədəbiyyatşünaslığında metaforanın səciyyəvi xüsusiyyətlərini açan, onun funksiyasını təyin edən istənilən qədər təriflərə rast gəlmək mümkündür*. Bəzən "uzaq anlayışların belə bir-biri ilə əlaqə yaratmaq imkanı olduğu", "əvvəllər "qısaldılmış müqayisə" adlandırılsa belə" müəyyən xüsusiyyətlərinə görə ondan fərqləndiyi, təkcə oxşar əlamətlərin köçürülməsi deyil, "həm də sanki müqayisə edilən obyektləri müqayisə etmək" imkanı olduğu [18, s.153], metaforanı "məcazi olaraq iki şeyi müəyyən edən gizli bənzətmə, nitq şəkli, müəllifin sözün mənasını əks etdirməsi və ya təhrif etməsi mexanizmi" [9], tropun növlərindən biri kimi "söz və ifadələrin mənalarının yaxınlığına və təzadına görə yaxınlaşması, bu baxımdan obrazlılığın daha qədim vasitələri olan müqayisə, bənzətmə və paralelizm ilə üstünlük təşkil etməsi "iki üzvün asanlıqla göründüyü bölünməz müqayisə" [12] kimi geniş poetik koteqoriya kimi şərh olunmasına rast gəlmək mümkündür. Deməli, metafora məcazın növlərindən biridir. Bədii dilin əsas troplarından olan metafora varlıqlar arasında müəyyən əlamət yaxınlığını ehtiva edir. Burada köçürmə yalnız bir qabarıq əlamətlə vurğulanır və köçürüldüyü əşyanın, məfhumun üzərində daha aydın görünərək məxsus olduğu əşyanın təyinatı mövqeyindən aydın başa düşülür. Simvol isə fərqlidir. Tərəflər arasında müəyyən oxşarlıq və təzadlığın müqayisəsi bir əlamətin köçürülməsi ilə bitmir. Əşya yalnız bir əlamətlə deyil, forma, məzmun, hal-vəziyyəti və demək olar ki, bütün məzmunu ilə köçürülmə aktında iştirak edir. Bədii simvolda bir obyektdə real aləmlə irreal aləm birgəliyini yaratmaq, başqa bir mistik aləmin varlığının başa düşülməsi durur. Müqayisə, varlıqlar arasında oxşar, təzadlı məqamların tapılması, müəllif ideyasına, əsl mahiyyətin üzə çıxarılmasına hesablanır.

Simvolun metafora, metaforanın çox zaman simvol statusunda verilməsi nəzəri fikirdə adi hala çevrilib. Metafora və simvol bir-birinə çox yaxındır, amma eyni deyillər. Metaforada köçürülən əlamət, simvolda isə ideyaya hesablanan bütöv məzmunun köçürülməsi var. Simvol təbii ki, nəyin simvolu olduğunu göstərir, amma bunu birbaşa, asan formada təqdim etmir. Simvol diqqəti bilinməyən bir istiqamətə yönəldir, amma əşyanın mahiyyətini aydınlaşdırmaq üçün kifayət

* Лосев А.Ф. Проблема символа и реалистическое искусство. М.: Искусство, 1976; Арутюнова Н.Д. Метафора и дискурс// Теория метафоры: сб.статей/под.общ.ред.Н.Д.Арутюновой и М.А.Журинской. М.: Прогресс, 1990, с.5-32; Крупчанов Л. Метафора// Словарь литературоведческих терминов. Стлб.208 https://philologos.narod.ru/tamar/t11.htm; Теория метафоры. Сборник. Пер.с.анг, фр.., нем., исп., польск. яз., Москва, «Прогресс», 1990; Авдеенко И.А. Символ и метафора. Филологические науки. Вопросы теории и практики. Тамбов. Грамота, 2013 №3 (2): в 2-х; Шувалов В.И. Символ и метафора в языке и речи. file:///C:/Users/WIN%2010/Downloads/simvol-i-metafora-v-yazyke-i-rechi.pdf. Стр. 349-355; Hüseyin Saraç. Edebiyatın içten incelenmesinde imaj, metafor, sembol ve mit unsurları. https://www.dergizan.com/2016/07/23/edebiyatin-icten-incelenmesinde-imaj-metafor-sembol-ve-mit-unsurlari-huseyin-sarac/

qədər idrak potensialına malik olması yeni bilik və ideya əldə olunmasına şərait yaradır. Metafora ilə bağlı müasir filoloqlar, filosoflar, məntiqçilərin ayrı-ayrı tədqiqatlarına istinad olunaraq tərtib olunmuş "Metoforanın nəzəriyyəsi" kitabında E.Cassirer, X.Orteqa, İ.Qasseta, A.Richards, Dj. Searle, R.Jacobson, M.Black, J.Miller və b. elmi və bədii dildə, danışıq, məişət nitqində sözün metaforik mənasının təhlili verilmiş, metaforalara məntiqi, fəlsəfi, linqivistik, koqnitiv və üslubi aspektlərdən baxılmışdır. Düzdür, kitabda əsasən metaforanın nəzəri təhlilini vermək nəzərdə tutulduğundan metafora – simvol, metafora – müqayisə və s. troplarla əlaqə yönümündə tədqiqatlara az yer verilmişdir. Metafora çox zaman simvol və müqayisə ilə qarışdırılır. Metoforada bir-birinə uzaq olan anlayışların bir-birilə yaxınlaşmaq, birləşmək, əlaqə qurmaq imkanları var. Ümumi ortaqlığın olması bədii müqayisə ilə onu çox zaman birləşdirmiş, hətta metaforanı "qısaldılmış müqayisə" hesab etmişdilər. Lakin metaforanı tərəflər arasında müqayisə və ümumi xüsusiyyətlərin müşahidə olunduğu anlayışların birləşdirilməsi fonunda "gizli müqayisə", "qısaldılmış müqayisə" hesab etmək də düzgün deyil. Metafora anlayışları yalnız bir araya gətirib onlar arasında oxşarlığı təyin etmir, "həm də müqayisə edilən obyektləri sanki müqayisə edir" [18, s.153]. Metafora müqayisə deyil, əşyanın üzərinə köçürülən hər hansısa bir hərəkət artıq əsas daşıyıcısı olduğu həqiqi tərəfdən çıxır, başqa bir tərəfin təsvir, məzmun, ideya baxımından təqdimini şərtləndirir. Simvol metafora ilə müqayisədə geniş, mükəmməl semantikaya malikdir. Burada ideya iki oxşar məfhumun mahiyyətini qarşılaşdırma yolu ilə üzə çıxarır. Metafora üçün təsvir əhəmiyyətli deyil, amma onun əsasında təfərrüatlı təsvir dayanır, onun üçün konkret bir əlamətin oxşarlığı vacibdir. Simvol isə bir orqandır, bütövdür, ayrı-ayrı əlamətləri dağınıq şəkildə deyil, sistemli formada öz bətnində əridir. "Metafora gerçəkliyin dərk edilməsini dərinləşdirir, simvol səni onun hüdudlarından kənara çıxarır" [4, s.339]. Metaforada çox zaman təsvir müstəqil çıxış edir və nisbətən lokal bir şəkildə təzahürünü görürük. Simvolda isə təsvir sadəcə nəyi isə daha güclü və obrazlı təqdim etmək xüsusiyyəti daşımır, simvolda ideyaya çağırış güclüdür. Hüseyn Saraç "Edebiyatın içten incelenmesində imaj, metofor, sembol ve mit unsurları" araşdırmasında şeirdə xüsusi önəm kəsb edən imaj, sembol, metofor və s. ünsürlər və onların bir-biri ilə yaxın və fərqli cəhətləri haqqında danışaraq metaforanı "bir sözün gerçək anlamını kaldırıp, ona benzerliği olan başka bir anlamı vermək sanatıdır" [11] deyə fikirlərini ümumiləşdirir. Filosof A.F.Losev simvol – metafora əlaqələrindən danışarkən onlar arasında oxşar, ortaq və fərqli məqamlara diqqət yönəldir, hər iki kateqoriyanın funksional-semantik xüsusiyyətlərini açır və qənaətlərini ümumiləşdirərək qeyd edir: "Simvol bizə məlum olmayan hansısa obyektə işarə edir, eyni zamanda bu obyektin məlum olması üçün lazımi nəticələr çıxarmaq üçün hər cür imkan yaradır. Metafora özünə yad olan heç bir obyektə işarə etmir. O artıq özlüyündə başqa mövzuya keçmədən, uzun müddət nəzərdən keçiriləcək və düşündürüləcək qədər öz-özünə kifayət edən bir mövzudur" [14, s.386]. Simvol metaforaya çox yaxındır, onlar arasında ortaq məqamlar, oxşarlığın olmasına baxmayaraq simvol metafora deyil. Hər ikisində ortaq cəhət təsvir və ideyanın bir-birinə nüfuz etməsidir. Simvolda sirlilik var, amma metaforada sirli deyiləcək bir şey yoxdur. Metaforada bənzədilənin əlaməti bənzəyənin üzərində daha qabarıq nəzərə çarpır və ümumi ortaq məxrəc, uyarlıq heç bir çətinliyə salmadan təsəvvürə gəlir. Lakin simvol üçün konkret əlamətin deyil, bənzədillənlə bənzəyən arasındakı əlaqədə bənzəyənin yox, bənzədilənin əsas, aparıcı əlamətinin qabardılması xarakterikdir. Əgər müqayisədə yalnız bir hissə götürülürsə, diqqət konkret predmet və əşyanın üzərinə istiqamətlənirsə bu simvol deyil, metaforadır. Hər bir simvol yaddaşdır, yəni yaddaşsız simvol yoxdur. Düzdür, fəlsəfi, bədii-estetik fikrin tarixi inkişafı, zaman və ictimai quruluşun ümumi tematikası ideoloji kanonlara uyğun olaraq simvolun kəsb etdiyi məna simvolik sistemdə mövcud olan mənanı dəyişə, yeniləyə bilər. Lakin burada diqqət kəsb edən məsələlərdən biri də bu dəyişimin mənanın alt qatına təsirsizliyidir. Yəni, hər bir yeni yaranan simvol mədəniyyətdə, yaddaşda mövcud olan simvolun davamıdır. Metafora bir əşyaya xas xüsusiyyətin, aparıcı bir cəhətin ona oxşar və ümumi cəhət baxımından oxşarlığı olan digər predmet üzərinə köçürülməsidir.

Simvol üçün yad olan təsvirçilik, dil materialına əsaslanan metafora üçün yad deyil. Bu təsvir obrazın tutumunu təyin edir, mövqeyini açıb bəyan edir.

*Gəlin kimi çilər yazda özünü,*
*Səhər-səhər bulud öpər dizini,*
*Gün batanda kölgələyər gözünü,*
*Tərləyə-tərləyə yatar o dağlar.*

*Geyinər, bəzənər telli, talalı,*
*Lalədən ənliyi, ağ qardan xalı,*
*Gümüş qolbağılı, yaqut sırğalı,*
*Ellərə içvələr satar o dağlar.* [22, s.54]

Obraz metaforikləşəndə onun bir əlaməti müxtəlif mövqe və situasiyanı yalnız konkret əlamətilə ifadə edir. Simvol mövqeyində isə yalnız əlaməti deyil, obrazın mədəniyyətdəki yerinin, formalaşdırdığı düşüncənin assosiativ funksiyası önə keçir və obraz ümumiləşdirilir. Obraz simvollaşdıqda materiala çevrilir, müəllif həmin materialdan öz məqsədinə, məramına uyğun olaraq obyektin forması, ölçüsü, görünüşü, həcmi və s. istifadə edir. Fikrimizi iki eyni mövzuda yazılmış şeirlə də izah edə bilərik. Metaforada təsvirin konkretliyi var, obyekt, əşya üzərinə köçürülmüş hər hansısa bir əlamət, digər bir əşya və ya predmetə məxsus səciyyəvi, aparıcı keyfiyyət köçürüldüyü obyektin üzərində onun təyinedicisi kimi çıxış edir və yalnız əşya üzərində keçərli olaraq onun aydınlaşması üçün zəmin yaradır. H.K.Sanılının "Kür" şeirində müəllif şəxsləndirmə, müəyyən tərəflər arasında təsviri əlaqə qurmaqla obyektin obrazlı və görüntülü, əyani təsvirini yaratmağa çalışmışdır.

*Söykənmiş Qafqazın qoluna başın,*
*Çatıbdır Xəzərə ayağın sənin.*
*Araz əkiz tayın, doğma qardaşın,*
*Olubdur o yolda ortağın sənin.*

*Qızırsan nər kimi bahar olanda,*
*Döyüşürsən şir tək sən o zamanda.*
*Qorxur qığıltından daş da, heyvan da,*
*Qaralır çox qaşın-qabağın sənin.* [23, s.6]

Bədii nümunədə obyektin canlandırılması, köçürmə elementləri, tərəflər arasında ortaq əlaqələrin qurulması və s. gedişatlar yalnız obyektin öz üzərində cərəyan edir. Kür çayı 1920-30-cu illər poeziyasında tez-tez təkrarlanan, müraciət olunan təbiət obyektlərdən biri idi. Buna səbəb cəmiyyətdəki quruculuq işləri, sovet ideoloji proqramının həyata keçirdiyi mexanizm, insan-təbiət münasibətlərində yeni əlaqələrin qurulması, quruculuq işlərinin dövlət proqramının tərkibində həyata keçirilməsi və s. idi. Lakin mövzu birmənalı şəkildə qəbul edilmirdi, obraz öz həqiqi funksiyasından uzaqlaşdırılır, şəxsləndirilir, lirik "mən"in ruhi-psixoloji yaşantılarının obrazı kimi çıxış edir, mifləşir, simvollaşırdı. H.Sanılının "Kür" şeirində obraz tutumlu təsvir elementləri ilə metaforikləşir, bir təbiət atributu kimi təqdim olunur. Ə.Cavad şeirində bundan fərqli olaraq obyektin şəxsləndirilməsi fonunda şair öz lirik düşüncələrini, zaman və insan qarşılaşmasında lirik "mən"i yeni zamanın obrazı kimi simvollaşdırır. Təsvir və təqdimatda obyekt yalnız canlandırılmır, lokal çərçivədən çıxaraq simvollaşır, insan-təbiət münasibətlərindən zaman və qəhrəman probleminə istiqamətlənir. Bu cür şaxələnmə obyektin simvollaşması üçün zəminə çevrilir. Şeirdə işlənən "məğrur olma çox, əyil, Qudurdunmu qovaram", "tutaraq cilovundan, azdıra da bilərəm", "Bu gün qətlinə fərman", "Yazdıra da bilərəm", "Əlimdədir cilovun", "Sıxaram çıxar suyun", Sönər odun, alovun", "Qısalar uzun boyun", "Əyil, Kürüm, əyil, keç", "Meydan sənin deyil, keç!" [8,

s.241] misralarında metaforikləşmə yalnız obyekt üzərində sabitləşmir, sərhədləri qıraraq geniş simvolik məzmuna istiqamətlənir. Simvolik obrazlılıqda bədii süjetə, təhkiyəyə daxil olan bütün dil komponentləri konkret obrazın arxasında gizlənən məqsəd və ideyanın ümumiləşməsinə xidmət göstərir. Simvol xüsusiyyəti qazanmış obrazla bağlı adi bir təsviri lövhə də öz çərçivəsindən kənara çıxır, obrazın həqiqi mənasına yox, onun mahiyyətindəki ideyanın açılmasına yönəlir. Bu cəhətlərinə görə simvolun çoxmənalılığını adi bədii obrazın çoxmənalılığından fərqləndirən A.Auer yazır: "........simvol öz konkret mənasından aşaraq sərhəddən kənara çıxır, bir-birinin ardınca paralellər və assosiasiyalar yaradan bitməz enerji ilə dolur. Paralellər və assosiasiyalar "ailəsi" artaraq daha dərin və geniş təsvirlik əldə edir" [3, s.210]. Simvol ilə metafora arasında oxşarlıq onların hər ikisinin daşıdığı funksiyanın bu və ya digər dərəcədə bir-birinə keçməsidir. Simvol metaforikdir, onun doğulması üçün lazım olan şərait, mühitin yaranması metafora vasitəsilə reallaşır, eyni zamanda hər bir metafora da bu və ya digər dərəcədə simvolikdir. Yəni hər birinin yaranışında əsas yardımçı funksiya kimi bir-birindən yararlanma olsa da, amma tam fərqlidirlər. Çox zaman həm metafora, həm də simvol arasında elə incə bağlantılar olur ki, onları bir-birindən ayırmaq mümkün olmur. Məhz buna görə də "metaforik simvol" ifadəsini işlədə bilərik. R.Rza, Ə.Kərim, N.Xəzri, H.Arif və b. şeirlərində kifayət qədər "metaforik simvol"lara rast gəlmək mümkündür. H.Arifin "Dərələr çəkir", "Söyüd payası", "Köz", "Kök və budaq" şeirlərini buna misal gətirə bilərik.

*Söyüddən bir paya düzəltdi bağban*
*Çəpərin ömrünü uzatmaq üçün;*
*Bir ucu güc aldı gündən, havadan,*
*Bir ucu torpağa işlədi hər gün.*

*Nəhatət, içindən pozdu çəpəri,*
*Onun qollarını bağlamaq olmaz.*
*Ağactək böyümək istəyənləri,*
*Payatək çəpərdə saxlamaq olmaz.* [10, s.99]

## Nəticə / *Conclusion*

Elmi-nəzəri, bədii nümunələr əsasında apardığımız müşahidə və araşdırmalara əsaslanaraq deyə bilərik ki, bu poetik kateqoriyalar arasında bağlantılar, bənzərlik və fərqliliklər nə qədər ayrılsa da, bir o qədər qarışdırılmışdır. Bu kateqoriyaların hər birində işarə, bənzətmə, müqayisə, bənzəyən və bənzədilən arasında əlaqə demək olar ki, eyni ortaq məxrəci şərtləndirir. Simvol obrazlılığın ən baş və bütöv sistemidir. Onu bütün poetik kateqoriyalara bölmək, parçalamaq mümkündür, ancaq digər kateqoriyaların simvol rolunda çıxışı mümkün deyil. İşarə işarə etdiyi ilə əlaqəli ola və olmaya da bilər. Simvolda isə əlaqə birtərəfli deyil, burda məzmunu və məntiqi əlaqə mütləqdir. Metafora müəyyən bir əlamətin köçürülməsidirsə, simvolda isə konkret əlamət deyil, müəyyən əşyaya xas bütöv məzmunun (hansı ki, onun üçün önəmli olanın) köçürülməsi aparıcıdır. Metaforada köçürülən əlamət yalnız köçürüldüyünün üzərinə istiqamətlənir, simvolda isə hər hansısa bir məfhumla bağlı olan məzmunun köçürülməsi əsasdır. Bu cəhətdən simvol daha mürəkkəb funksiyaya malikdir. Həm simvolda, həm də metaforada assosiasiya var. Simvolda assosiativlik qarşı tərəfin məntiqi məna yolu ilə çözülməsinə imkan yaradır, metaforada isə bu proses nisbətən sadə şəkildə qurulur. Metaforadan fərqli olaraq simvolda assosiativlik, məntiqi assosiativlik yeni məna qatına enməyə, müəllif ideyası və zamanın xarakterini şərtləndirən yeni mənalara keçidə imkan yaradır.

**Ədəbiyyat / *References***


1. Allahverdiyeva, Z. Sufi-simvolik poeziyada metafora. Poetika.izm, 2015, №2.
2. Aristotel. Poetika. – Bakı: Azərnəşr, – 1974.
3. А.Ауэр. Символ. Литературная учеба, – 1983, №5.
4. Арутюнова, Н.Д. Метафора и дискурс// Теория метафоры: сб.статей/под.общ.ред. Н.Д.Арутюновой и М.А.Журинской. – М.: Прогресс, – 1990. – с.5-32.
5. Аверенцев, С.С. Символ художественный. «Краткая Литературная Энцклопедия. Т6, 1971.
6. Авдеенко, И.А. Символ и метафора. Филологические науки. Вопросы теории и практики. Тамбов. Грамота, 2013 №3 (2): в 2-х, с.16-18.
7. Блэк, М. Метафора // Теория метафора. Сб.статей. Под.общ.ред Н.Д.Арутюновой и М.А.Журинской. – М.: Прогресс, – 1990. – с.153-172.
8. Əhməd Cavad. Seçilmiş əsərləri. İki cilddə, I c. – Bakı: Azərnəşr, – 1992.
9. Harry Shaw. Concise Dictionary of Literary Terms. Pdf/str/171 https://www.slideshare.net/slideshow/harry-shaw-concise-dictionary-of-literary-termspdf/263148367
10. Hüseynzadə, Hüseyn. Seçilmiş əsərləri. 2 cilddə, I c. – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1975.
11. Hüseyin Saraç. Edebiyatın içten incelenmesinde imaj, metafor, sembol ve mit unsurları. https://www.dergizan.com/2016/07/23/edebiyatin-icten-incelenmesinde-imaj-metafor-sembol-ve-mit-unsurlari-huseyin-sarac/
12. Крупчанов, Л. Метафора// Словарь литературоведческих терминов. Стлб.208 https://philologos.narod.ru/tamar/t11.htm
13. Лосев, А.Ф. Символ и художественное творчество. – М., – 1971.
14. Лосев, А.Ф. Проблема символа и реалистическое искусство. – М.: Искусство, – 1976, – 367 с.
15. Нурдаумтова, Б.И. Метофоры в когнитивном аспекте//Современные исследования социальных проблем. 2010, №4.1(4). с.617-623.
16. Теория метафоры. Сборник. Пер.с.анг, фр.., нем., исп., польск. яз. – Москва: Прогресс, – 1990 .
17. Тимофеева, В.В. Язык поэта и время. – Москва-Ленинград: Академия наук СССР, – 1962.
18. Stanislav, Sierotwinski. Slownik terminow literackich. – Ossolineum, – 1970.
19. Шувалов, В.И. Символ и метафора в языке и речи. file:///C:/Users/WIN%2010/Downloads/simvol-i-metafora-v-yazyke-i-rechi.pdf. стр.349-355.
20. Вейнберг, И.П. Человек в культуре древнего Ближнего Востока. – Москва, – 1986, стр.53.
21. Узенцова, Е.А. Метафора и символ в лирической поэзии М.Ю.Лермантова: Когнитивно –семантический и лингвокультурологический аспекты. Автореферат. Ростов-на-Дону, 2016. https://www.prlib.ru/item/1151199.
22. XX əsr Azərbaycan poeziyası antologiyası (1920-ci illərin poeziyası). I kitab. – Bakı: Elm, – 2009.
23. XX əsr Azərbaycan poeziyası antologiyası (1930-cı illərin poeziyası). II kitab. – Bakı: Elm, – 2010.

## Связи символ–метафора в художественном творчестве

**Гюнай Гараева**
Доктор философии по филологии, доцент
Институт литературы имени Низами Гянджеви НАНА
E-mail:gunaygarayeva@gmail.com

**Резюме**. В статье говорится о связях символа и метафоры, служащих предметом широкого исследования. При разностороннем рассмотрении теоретического аспекта проблемы часто создаются трудности при выявлении общих связей между определением, метафорой, аллегорией, символом, в установлении границ между ними. В литературоведческой науке символ часто принимают за метафору, имеет место смешение понятий, иногда символ используется как синоним метафоры. Именно отсюда создаются некоторые трудности в различении схожих понятий исходя из образных элементов, структурно-семантической точек зрения. Часто в самом тексте невозможно определить их разграничение друг от друга, Т.е. как символ, так и метафора понимаются одинаково. И здесь требует рассмотрения один вопрос: началом символа является метафора, так как изначально между ними существует сходство и сопоставление. Поэтому переход метафоры в символ либо возможен, либо нет. В проведённом исследовании сходство и различие этих понятий подвергается анализу с привлечением образцов творчества Г.Санылы, А.Джавада, М.Мушвига, Р.Рзы, Г.Арифа и др., связи символа и метафоры, характерные особенности их различий исследуются с помощью научных аргументов и доводов.
**Ключевые слова:** стихотворение, поэтическая категория, метафора, метафорический символ, символ, ассоциация